Tarix və onun problemləri, №1-2 2009

İSMAYIL İSMAYILOV
*Gəncə Dövlət Universiteti*

# XX ƏSRİN 80-Cİ İLLƏRİNDƏ BEYNƏLXALQ HUMANİTAR ƏLAQƏLƏRDƏ AZƏRBAYCAN VƏ YUNESKO

Məlum olduğu kimi tarixdə belə bir fikir mövcuddur ki, mədəniyyətdən və elmdən kənarda insanın və ölkənin inkişafı mümkün deyildir. Çünki mədəniyyət insan tərəfindən təbiətin, onun özünün və cəmiyyətin dərk olunması və dəyişdirilməsi, öz həyat və fəaliyyətinin mahiyyət xarakterli qüvvələrinin reallaşması prosesidir. Eləcədə «yüksək ruhi mədəniyyət» - insanların bütün problemlərinin açarı, milli təhlükəsizliyin və rifahın əsasıdır. Bu insanını və cəmiyyətin xilasının, inkişafının və çiçəklənməsinin yeganə yoludur. Ən əsası isə yüksək mədəniyyətli insan ölkənin başlıca milli sərvətidir.

Azərbaycan öz adını zəngin tarixinin qədimliyi və əlaqələri ilə, həmçinin öz maddi və mənəvi sərvətləri ilə dünyaya tanıtmışdır. Dünyada inkişafda olan humanitar proseslərin mənəvi bazasının genişlənməsindən də danışılarkən Azərbaycanın mədəni potensialının da yeri unudulmamalıdır. XX əsrin 80-ci illərində məlum olduğu kimi Azərbaycan müstəqil ölkə kimi deyil, SSRİ tərkibində olan bir sosialist respublika kimi beynəlxalq humanitar əlaqələrdə iştirak etmişdi.

XX əsrin 80-ci illərində Azərbaycan Respublikasının beynəlxalq humanitar siyasət sistemində fəaliyyətinin əsas istiqaməti ölkənin milli mədəniyyətinin dünyada bu sahədə gedən proseslərin inkişafında, onun intellektual bazasının möhkəmləndirilməsində özünəməxsus yerinin təmin edilməsindən və həmin proseslərdə milli mədəni potensialın rolunun artırılmasından ibarət olmuşdur. Bu təsadüfü deyildir. Ona görə ki, beynəlxalq mədəni əlaqələr əgər bir tərəfdən dünya miqyasında beynəlxalq humanitar proseslərin mənəvi bazasını möhkəmlədirsə, digər tərəfdən insanların və dövlət xadimlərinin bir-birini yaxşı başa düşməsinə şərait yaradır, ölkələrin bir-birini tanımağa, onların yaxınlaşmasına xidmət edir və dünyada ədalətli beynəlxalq münasibətlərin formalaşması üçün onların həmrəy fəaliyyət göstərməsini möhkəmləndirir və istiqamətləndirir. Bu əlaqələr eyni zamanda xalqlar arasında sülhün möhkəmlənməsinə və müxtəlif sahələrdə onların əməkdaşlığının genişlənməsinə səbəb olur. Mədəni əlaqələrin əhəmiyyəti bir də ondan ibarətdir ki, bu əlaqələrsiz mənəvi mədəniyyətin nə keçmişini, nə də gələcəyini təsəvvür etmək olmaz. Əgər konkret formada və ümumiləşdirilmiş qaydada desək, mədəniyyət sahəsində əlaqələrin genişlənməsi xalqların mənəvi həyatının inkişafını daha da sürətləndirir. Ancaq onu da dərk etmək lazımdır ki, bu proses təkcə bir dövlət tərəfindən beynəlxalq aləmdə, inkişaf etdirilən bir proses deyil, bu həm də ümumdünya miqyaslı tarixi bir prosesdir. Odur ki, mədəni və elmi sahədə əlaqələrin inkişafı və onların humanitar proseslərin inkişafında rolu məsələsi dünyada mövcud olan dövlətlərin xarici siyasətinin mərkəzində durur və bir humanitar proses kimi, ölkələrin əməkdaşlığını müəyyənləşdirir və onun inkişafına xidmət edən dövlətlərarası müqavilələrin, sazişlərin və bu sahədə tərtib olunmuş əməkdaşlıq sənədlərinin əsas məğzini təşkil edir. Bu əlaqələrin möhkəmləndirilməsi həm də dünyada yaradılmış xüsusi beynəlxalq təşkilatların o cümlədən BMT-nin elm, təhsil və mədəniyyət sahələri üzrə orqanı olan YUNESKO ilə əlaqələr də xüsusi ilə vacib olmuşdur.

Bu illərdə dünyada gedən beynəlxalq humanitar əlaqələr də respublikanın mənəvi potensialının iştirakı xeyli artmış və hərtərəfli olmuşdur. Bunun parlaq təsdiqi, həmin illərdə Azərbaycan SSRİ 120 dünya dövlətinin 860 təşkilatı ilə mədəni həyat sahəsində əlaqələr qurmuşdur. O cümlədən sosialist, inkişafda olan Asiya, Afrika və Latın Ame-

rikası ölkələri və inkişaf etmiş kapitalist dövlətləri ilə əlaqələr yaradaraq, bu sahələrin inkişafına ehtiyac duyulmuşdur. Azərbaycanın xarici ölkələrlə həmin sahədə əlaqələri, mədəni həyatın müxtəlif sahələrində: təhsil, ədəbiyyat, incəsənət, radio, televiziya, kino, və sair sahələrdə həyata keçirilmişdir (15, buraxılmış -28, 1984, s.100).

O da təbiidir ki, belə bir ciddi ümumdünya prosesində bütün xalqların və onların mədəniyyətinin də öz imkanına görə yeri və payı vardır. Ona görə də öyrənilən 80-ci illərdə Azərbaycan SSRİ daxilində özünün beynəlxalq funksiyasını müəyyənləşdirərkən bu istiqamətin inkişafına xüsusi fikir vermiş və həmin dövrdə beynəlxalq aləmdə dövlətlər və xalqlar arasında mövcud olan humanitar əlqələrdə fəal iştirakına çalışmışdır. Həmçinin BMT-nin təşkilatları ilə də əlaqlər yaratmışdır. Elmi araşdırmamız göstərir ki, tədqiq etdiyimiz dövrdə Azərbaycanın bu sahədəki beynəlxalq əlaqəsi özünəməxsus istiqamətdə inkişaf etmiş və geniş xarakter almışdır. Lakin bir cəhəti də göstərmək lazımdır ki, sosial-iqtisadi və siyasi həyatın başqa sahələrində olduğu kimi, Azərbaycan beynəlxalq mədəni əlaqələri və onun humanitar funksiyası da, o dövrdə tərkibində olduğu SSRİ dövlətinin xarici siyasət sistemi çərçivəsində həyata keçirilmişdi.

Bildiyimiz kimi, Sovetlər ölkəsi qeyd olunan illərdə çox nəhəng mədəni potensiala malik bir dövlət olduğu üçün onun çoxmillətli mədəniyyəti dünyada gedən humanitar proseslərin inkişafına xeyli təsir göstərmişdir. Birləşmiş Millətlər Təşkilatı ilə də qurulmuş əlaqələr və keçirilmiş tədbirlərdə diqqətə layiq olmuşdur. Həmin illərdə beynəlxalq humanitar proseslərdə SSRİ mədəni potensialının səsi dünyanın hər guşəsindən gəlir, onun nailiyyətləri dünya ictimayyəti tərəfindən razılıqla və fərəhlə qaşılanırdı. Sovetlər ölkəsinin mədəniyyətinin dünya humanitar proseslərinin inkişafında iştirakının gündən-günə artmasının əsas səbəbi onun bütün dünyada sülh və əminamlıq ideyalarından və bütün insanlara xeyirxah xidmətlərindən irəli gəlirdi. Məhz ona görə də onun beynəlxalq humanitar əlaqələrinin müəyyən nöqsanları olsa da, hamı tərəfindən qəbul edilir, nəzərə çarpacaq dərəcədə inkişaf edirdi.

XX əsrin 80-ci illrində SSRİ-nin mədəni əlaqələri və onun humanitar rolu əvvəlki illərə nisbətən dövlətlərarası münasibətlərdə daha geniş yer tutmuşdu. Bu şübhəsiz ki, dünyada o dövrdə yaranmış şəraitlə, beynəlxalq siyasətdə əmələ gəlmiş yumşalma və abı-hava ilə bağlı idi. Bunun nəticəsində Sovet İttifaqının mədəni əlaqələr saxladığı ölkələrin sayı artmışdı. Həmin dövrdə Azərbaycanın mənəvi sahədə tanınması ildən-ilə daha da artaraq, geniş xarakter almışdır. Buna beynəlxalq əlaqələrdə Azərbaycanın mədəni potensialının iştirakının miqyasını respublika mədəni həyatının istənilən sahəsinin nümunəsində göstərmək olardı. Gəlin bunu ilk növbədə Azərbaycan incəsənətinin beynəlxalq əlaqələrinin timsalında açıqlayaq. Demək lazımdır ki, araşdırılan dövrdə Azərbaycan incəsənəti bizim SSRİ-ni beynəlxalq aləmdə müvəffəqiyyətlə təmsil etmişdi. Azərbaycan milli incəsənətinin səsi demək olar ki, planetin bütün qitələrindən gəlirdi. Bu sahədə əlaqələr isə incəsənətin hər bir sahəsini əhatə edirdi: teatr, artistlik, musiqi, kinomatoqrafiya, televiziya, radio, rəssamlıq və başqa sahələri. Həyata keçirilən bu əlaqələrin formaları da müxtəlif idi. Bu yaradıcılıq kollektivləri, mədəniyyət işçiləri və nümayəndə heyətinin mübadiləsi yolu ilə, yazıçıların əsərlərinin nəşri, milli mədəniyyət nailiyyətlərinin (hər hansı bir ölkənin mədəniyyət günləri, festivallar, sərgilər və s.), mədəniyyət sahəsində nəaliyyətlərin təbliğinə həsr olunmuş tədbirlərin təşkili, musiqi və dram incəsənətinin əməkdaşlarının yaradıcı əlaqələrinin genişləndirilməsi, jurnalistlərin birgə səfərləri, kino və radio-televiziya verilişlərinin mübadiləsi yolu ilə həyata keçirilirdi.

Xarici ölkələrə respublikanın ən yaxşı yaradıjı və bədii kollektivləri, geniş şöhrətə malik ansambılları, tanınmış rəssamları, bəstəkarları, yazıçılar birliklərinin əməkdaşları, yaradıcı ziyalıların nümayəndələri göndərilirdi. Bu mənada 80-ci illər ən bəhrəli illər

olmuşdu. Belə ki, həmin illərdə, ümumiyyətlə, 200-dən artıq incəsənət, mədəniyyət nümayəndələri, yaradıcı birliklərin (əməkdaşları) işçiləri, 80-dən artıq bədii kollektivlər, ifaçı qruplar, 1000-dən artıq artist, müğənni, musiqiçi xaricə göndərilmişdi (1, qovluq № 8, s.7-8;1, qovluq №2, s4-5; 18, №14-18, 1980-1990, s. 21, 24, 26, 5-6; 12,19. Rəqəmləri müəllif hesablamışdır). Bu illər ərzində Azərbaycanın incəsənət nümayəndələri bütün dünya qitələrində: sosializm ölkələrində: ADR, PXR, BXR, SFYR, MXR, ÇSSR, MXR, Kubada, RSR, VDR, KXDR; inkaşaf etmiş kapitalist ölkələrində ABŞ-da, AFR-də, Fransada, İsveçdə, Yaponiyada, İtaliyada Kanadada, Avstriyada, Belçikada, Böyük Britaniyada, Hollandiyada; Asiya ölkələrində - Hindistanda, İordaniyada, İrakda, İranda, Əfqanıstanda, Banqladeşdə, Livanda, Nepalda, Pakistanda, Suriyada, Türkiyədə, Şri-Lankada; Afrika ölkələrində - Əlcəzairdə, Qvineyada, MƏR-də, Kenuyada, Liviyada, Malidə, Mərakeşdə, Negeriyada, Seneqalda, Tunisdə, Efiopiyada; Latın Amerika ölkələrində - Argentinada, Venesuelada, Meksikada, Peruda, Salvadorda, Uruqvayda və başqa dövlətlərdə dəfələrlə qastrollarda olmuşdular. Bu dövr ərzində Azərbaycanının incəsənət ustalarının, ümumiyyətlə, dünyanın 160 ölkəsinin (çoxlarında təkrar) əhalisi və tamaşaçıları ilə görüşlər olmuşdur. Azərbaycanda isə ümumiyyətlə yer kürəsinin bütün qitələrinin 140 ölkəsindən mədəniyyət və incəsənət ustaları qonaq olmuş və çıxış etmişdilər. Bu illərdə respublikanın mədəniyyət işçiləri xarici dövlətlərin 800-ə yaxın şəhərinə səfər edərək, 2000-dən artıq konsertlər verərək, bu ölkələrin əhalisinin müxtəlif təbəqələri ilə 700-ə yaxın görüşlər keçirmişdilər. Qeyd etmək kifayətdir ki, Ü.Hacıbəyovun «Arşın mal alan» operası bolqar, türk, polyaq, fars, ingilis, fransız dillərində tamaşaya qoyulmuş, SSRİ xalq artisti, Lenin mükafatı laureatı Q.Qarayevin «Yeddi gözəl», «İldırımlı yollarla» baletləri dünyanın 9 ölkəsində nümayiş etdirilmişdi. A.Məlikovun «Məhəbbət əfsanəsi» baleti 25-dən çox ölkədə göstərilmişdir. SSRİ xalq artisti F.Əmirovun «Şur», «Kürd ovşarı» simfonik muğamları ABŞ-ın Boston simfonik orkestri tərəfindən ifa edilmişdir. Onun «Nizami» simfonik poemasını isə İngiltərə Kral simfonik orkestri ifa etmişdir (1, qovluq № 8, s.7-8; 18, №14-18, 1980-1985, s.21, 24,26, 5-6; 14, 99 müəllifin hesablamaları; 15, buraxılış 15-28, s.99, 102, 78, 92, 84, 104, 100, 94, 88,72, 91, 99, 101, 98, 28).

Bu əlaqələr eyni zamanda xalqlar arasında sülhün möhkəmlənməsinə və müxtəlif sahələrdə onların əməkdaşlığının genişlənməsinə səbəb olur. Mədəni əlaqələrin əhəmiyyəti bir də ondan ibarətdir ki, bu əlaqələrsiz mənəvi, daha konkret formada və ümumiləşdirlmiş qoydada desək, mədəniyyət sahəsində əlaqələrin genişləndirilməsi xalqların mənəvi həyatının inkişafını daha da sürətləndirir. Ancaq onu da dərk etmək lazımdır ki, bu proses təkcə bir dövlət tərəfindən beynəlxalq aləmdə, inkişaf etdirən bir proses deyil, bu həm də ümumdünya miqyaslı tarixi bir prosesdir. Odur ki, mədəni, və elmi əlaqələrin inkişafı və onların xarici siyasətinin mərkəzində duran və bir humanitar proses kimi, ölkələrin əməkdaşlığını müəyyənləşdirir və onun inkişafına xidmət edən dövlətlərarası müqavilələrin, sazişlərin və bu sahədə tərtib olunmuş əməkdaşlıq sənədlərinin əsas məğzini təşkil edir. Bu əlaqələrin möhkəmləndirilməsi həm də dünyada yaradılmış xüsusi beynəlxalq təşkilatların, o cümlədən BMT-nin elm və mədəniyyət sahələri üzrə orqanı olan və tərkibində 170-dən artıq dövləti birləşdirən YUNESKO kimi beynəlxalq qurumun fəaliyyətinin əsasını təşkil edir. (15, buraxılış 28, s.92).

O da təbiidir ki, belə bir ciddi ümumdünya prosesində bütün xalqların və onların mədəniyyətinin də öz imkanına görə yeri və payı vardır. Ona görə də öyrənilən 80-ci illərdə Azərbaycan SSRİ daxilində özünün beynəlxalq funksiyasını müəyyənləşdirərkən bu istiqamətin inkişafına xüsusi fikir vermiş və həmin dövürdə fəal iştiraka çalışmışdır. Həmçinin Azərbaycan SSRİ BMT ilə necə əlaqələr yaratmışdı?

Azərbaycanın bu sahədəki beynəlxalq əlaqəsi özünəməxsus istiqamətdə inkişaf etmiş və geniş xarakter almışdır. Lakin bir cəhəti də göstərmək lazımdır ki, sosial iqtisadi və siyasi həyatın başqa sahələrində olduğu kimi, Azərbaycanın beynəlxalq mədəni əlaqələri və onun humanitar funksiyası da o dövrdə tərkibində olduğu SSRİ dövlətinin xarici siyasət sistemi çərçivəsində həyata keçirilirdi.

Azərbaycan əsasən BMT-nin təhsil və mədəniyyət sahəsindəki ixtisaslaşmış qurumu YUNESKO ilə əməkdaşlığı diqqətə layiqdir. Təbii ki, burada da SSRİ-nin bir hissəsi kimi iştirak etmişdir. Məhdud imkanlara baxmayaraq Azərbaycan YUNESKO-nun keçirdiyi tədbirlərdə iştirakından danışarkən mədəniyyət sahəsindəki əlaqəsini unutmaq olmaz.

Azərbaycanın YUNESKO ilə əməkdaşlığa 60-cı illərdən başlamışdı.

YUNESKO ilə əməkdaşlığın ilk addımı 1967-ci ildə Fransız dilində M.F.Axundovun komediyalarını və Azərbaycan muğamlarını «Qafqaz xalqlarının ədəbiyyatı» seriyasında çap etdirərək dünya xalqlarına çatdırmışdı (10, səh.2).

XX əsrin 80-ci illərində isə Azərbaycan YUNESKO tərəfdaşlığından danışarkən 1981-ci ildə YUNESKO-nun Parisdəki mənzil qərargahında «Azərbaycan Xalçaları» sərgisini təşkil olunduğunu qeyd etmək olar. Burada 20-dən çox Azərbaycanın əl xalçası nümayiş etdirilmişdi.

Bunanla yanaşı YUNESKO Bakıda iki beynəlxalq konferans - 1981-ci ildə «Dil və şəhər», 1983-cü ildə isə «Şərq Xalça sənəti» konferansının keçirilməsi üçün Azərbaycana maliyyə yardımı ayırmışdı. YUNESKO-nun Azərbaycanla əməkdaşlığı beynəlxalq münasibətlərin inkişafına müsbət təsir göstərən prinsiplər və normalar çərçivəsində aparılmışdı. Bunun nəticəsində isə dünya mədəniyyəti uğurlar qazanmışdı.

1983-cü ildə isə Əcəmi Naxçıvaninin təsviri olan xalça o vaxt Bakıya gəlmiş YUNESKO-nun baş direktoru Amadu Mahtar MB-ya hədiyə edilmişdi. Bu əsər indi də YUNESKO-nun bədii kolleksiyasında saxlanılmaqdadır (II. 11 sentyabr 1983).

1983-cü ilin oktyabrın 1-də YUNESKO-nun qərarı ilə Beynəlxalq Musiqi Günü təşkil edilmişdir ki, həmin günlə əlaqədar Ü.Hacıbəyov adına Dövlət Simfonik orkestri Çaykovskinin əsərlərindən ibarət Azərbaycan Dövlət Flarmoniyasında konsert proqramı ilə çıxzış etmişdi (II. 2 oktyabr.1983. səh.1).

XX əsrin 80-ci illərindəki YUNESKO - Azərbaycan əməkdaşlığı tarixin inkişaf xəttinə təkan vermək də idi. Bu işlərin davamı kimi 1984-cü ilin noyabr ayında Azərbaycan Dövlət Rəqs Ansamblı YUNESKO-nun mənəvi qərərgahında konsert proqramı ilə çıxış etmişdi. Eləcə də azərbaycanlı incəsənət xadimi, xalq artisti müğənni Lütviyar İmanov və sənətşünas E.Salmanov YUNESKO-nun hesabına xarici ölklərdə təşkil edilən kurslarda iştirak etmişdilər. Həmçinin Nəsimi və Üzeyir Hacıbəyovun da yubileyləri qeyd edilmişdi. Eləcə də 1985-ci ildə Londonda YUNESKO-nun dəstəyi ilə «Azərbaycan əlyazmaları» və «Bakının memarlığı» sərgiləri keçirilmişdi. 1985-ci ildə həm də Parisdə YUNESKO-nun qərargahında Azərbaycan Əlyazmaları Fondunun İnciləri sərgisi keçirilmişdi (20.23 mart 1985). Azərbaycanın xalq rəssamı Lətif Kərimovun xalça sərgisi YUNESKO işləri üzrə SSRİ komissiyası tərəfindən Londonda açılmışdı (12. 7 avqust.1986. səh 3).

1988-ci ildə Azərbaycan muğam üçlüyü YUNESKO-nun bayrağı altında keçirilən musiqi festivalında I yer tutması fərəhləndirici idi. 22-ci dəfə keçirilən musiqi festivalında üçlüyün I yer tutmasının «Vaşinqton post» və «Nyu-York tayms» qəzetləri geniş şəkildə işıqlandırılmışdı.

Bu layihələrin artması Azərbaycan Beynəlxalq arenada tanınmasına təkan verirdi. YUNESKO-nun incəsənət təmayüllü layihələrində Azərbaycan fəal iştirakına görə 1988-ci ilin oktyabrında Bakıda YUNESKO nəzdində Beynəlxalq Təsviri İncəsənət

Assosiasiyası İcraiyyə Komitəsinin 46-cı sessiyası keçirilmişdi. Xalq rəssamı Tahir Salahova bu təşkilatın müxtəlif ölkələrin rəssamları arasında yaradıcılıq əlaqəsi, informasiya və incəsənət mübadiləsinə nəzarət etmək həvalə edilmişdi (10, səh 6.).

Elə həmin ildə Parisin «Pyer Karden» Modalar evinin aparıcısı, eləcədə YUNESKO-nun bədii məsləhətçisi Riçard Neypiyerin Azərbaycanda «Obrazlar və formalar» adlı sərgisi keçirilmiş, burada onun həmçinin «Şirvanşahlar Sarayı» fotoseriyasıda var idi.

Ümumiyyətlə, YUNESKO-nun «Mədəniyyət proqramı» çərçivəsində keçirdiyi bir çox tədbirlərdə Azərbaycan mədəniyyət xadimləri də iştirak etmişdi.

1988-ci ilin ən mühüm hadisələrindən biri də YUNESKO-nun iştirakı ilə Bakıda ikinci Beynəlxalq Şərq Xalçası sənətinə dair simpozium keçirilməsi oldu. Simpozium işində dünyanın 18 ölkəsindən, o cümlədən ABŞ, Çin, İngiltərə, ADR, Yaponiya, Türkiyə, və İtaliyada 150-dən çox alim, rəssam, xalça mütəxəssisi iştirak etmişdi (1, iş №1, səh.3.).

Göründüyü kimi sadalanan bu tədbirlərin Azərbaycanda və Azərbaycanın timsalında xaricdə layiqincə, müvəffəqiyyətlə həyata keçirilməsi YUNESKO ilə əməkdaşlığın genişlənməsinə və yeni proqramların həyata keçirilməsinə şərait yaratmışdı. Bu da humanitar əlaqələrin inkişafına təkan vermişdi.

XX əsrin 80-ci illərində Azərbaycan SSRİ Beynəlxalq humanitar əlaqələr yaradarkən, dünyada əməkdaşlıq ideyalarının yayılmasında və inkişaf etməsində mühüm rol oynayan elmin və təhsilin bütün istiqamətlərindən istifadə edərək beynəlxalq əlaqələrin güclənməsinə təkan vermişdi. Respublikanın bu sahəyə ciddi fikir verməsi və qayğı göstərməsi təbii bir hal idi. Dünyada gedən proseslərdə elm və təhsilin iştirakı olmadan heç bir əlaqədən və nailiyyətdən danışmaq mümkün deyildi. Məlum olduğu kimi elə elmi problemlər də vardı ki, onlar bütün ölkələrin, bütün xalqların taleyi və gələcəyi ilə bağlı idi və həmçinin bir neçə ölkə tərəfindən geniş təşkil edilmiş birgə elmi tədqiqatlar tələb edirdi.

Azərbaycan SSR-də əlindən gələni etmişdi ki, respublikanın elmi-texniki potensialı bu prosesdə iştirak etsin. Göründüyü kimi görülün işlər nəticəsində XX əsrin 80-ci illərində Azərbaycan elmi, təhsili planetimizin demək olar ki, hər güşəsində özünü qismən də olsa tanıda bilmişdi.

Faktlara müraciət etsək məlum olur ki, 80-ci illərdə respublikamızın tədris ocaqlarında müxtəlif illərdə 48-dən 70-ə qədər dünya ölkələrinin gəncləri təhsil almışdı. Bu xarici ölkələrdən isə 1000-dən 2000-ə qədər adam respublika təhsil ocaqlarında təhsil almışdır. Təkcə 1981-1984-cü illər ərzində xaricdən respublikanın ali məktəblərinə oxumağa 3277 adam gəlmiş, 543 nəfər isə bu məktəbləri bitirmişdir. 1985-ci ilin sonunda respublikada 80-dən artıq dünya ölkəsindən 2983 nəfər adam təhsil almışdır.

1986-cı ilə qədər respublikada dünyanın 80 ölkəsi üçün 29-dan artıq ixtisas üzrə 3000-ə yaxın ali təhsilli mütəxəssislər hazırlanmışdı (4, 5 müəllifin hesablanması).

Tədqiqat dövründə humanitar sahədə dünya xalqlarının beynəlxalq əlaqələrinin güclənməsində və genişlənməsində respublika alimləri ordusu və Azərbaycan elmi də vacib rol oynamışdı.

XX əsrin 80-ci illərində Azərbaycan elmi böyük nüfuza malik idi. Azərbaycan alimləri Sovetlər ölkəsinin çoxmilyonlu alimlər dəstəsi tərkibində, elmin vacib sahələrində tədqiqatlar aparırdı. Müasir elmi problemlərin həllinə öz sanballı tövhələrini verirdi və təsadüfü deyildi ki, respublikanın elmi tədqiqat istiqamələrinin çoxu həmin dövrdə xarici tərəfdaşlarının diqqətini cəlb edirdi. O illərdə Azərbaycan alimlərinin, kimyaçılarının, fiziklərin, astrofiziklərin, riyaziyyatçıların, bioloqların, fizioloqların, geoloqların, çoğrafiyaşünasların və elmin başqa istiqamətlərinin nailiyyətləri dünyada

geniş tanınmışdı. 80-ci illər ərzində bu əlaqələr daha da güclənib, intensiv xarakter almışdı. Məsələn, araşdırılan on il ərzində, 1700-dən artıq Azərbaycan alimi elmi məqsədlə xaricə getmiş, xaricdən isə 3500-ə yaxın alim respublikada qəbul edilmişdir. Eləcə də birgə 40 mövzudan artıq elmi-tədqiqatlar aparılmışdı (5, 6, 4, 3 müəllifin hesablamaları). Bu səpgidə vacib beynəlxalq vəzifəni şübhəsiz ki, Azərbaycan SSR Elmlər Akademiyası yerinə yetirmişdi. Belə ki, göstərilən illərdə respublika Elmlər Akademiyasının elmi müəssisələri 51-60 dünya ölkəsinin 570-650 elmi müəsisə və mərkəzləri ilə hər il əlaqələr saxlamış və elmin müxtəlif sahələrində yuxarıda deyildiyi kimi, 40 mövzu üzrə birgə tədqiqatlar aparmışdılar. O illərdə Elmlər Akademiyasının beynəlxalq əlaqələri elmi ezamiyyələr xətti ilə daha geniş olmuşdu. Belə ki, təkcə 1980-1988-ci illər ərzində Azərbaycan Elmlər Akademiyasından 600-ə yaxın elmin müxtəlif istiqamətlərinin nümayəndələri bir çox ölkələrə getmiş, onların arasında 90-dan artığı akademik və müxbir üzvü olmuşdu. 80-ci illərdə ümumiyyətlə xaricə gedən alimlər arasında 200-ə yaxın alim elmi tədqiqatlar keçirmək üçün, 300-ə yaxın Beynəlxalq elmi tədbirlərdə – konqreslərdə, simpoziumlarda, konferanslarda, iclaslarda iştirak etmək üçün, 200-ə yaxın elmi turizm xətti ilə, 100-ə yaxın alim isə texniki yardım göstərmək üçün getmişdi. Öz növbəsində Respublika Elmlər Akademiyasının alimləri bütövlükdə bu dövrdə, xaricdən 2000-dən artıq elm nümayəndələrini ölkədə qəbul etmişdilər. Məsələn, onlardan 100-ə yaxın elmi iş aparmaq üçün Azərbaycana gəlmişdi. Təkcə 1983-1984-cü illərdə Azərbaycana xarici ölkələrdən 350-dən artıq alim gəlmişdi. Bütövlükdə, 80-ci illrdə Azərbaycan Elmlər Akademiyasının 1500-dən artıq alimi xarici ölkə alimlərinin qonağı olmuş, 6000-ə yaxın xarici alim isə respublikada qəbul olunmuşdur (9, qovluq, №4, s.7-8; 162, müəllifin hesablamaları). Bu əlaqələrin gedişində, respublika alimləri, Sovet hakimiyyəti illərində Azərbaycanın nailiyyətləri haqqında həmin ölkəlrin alimlərinə danışırdılar. Xarici həmkarlarına öz elmi-tədqiqat işlərinin təcrübəsinin öyrədirdilər. Xalq təsərrüfatına elmi nəaliyyətlərinin tətbiqi işini təklif edirdilər və xarici əməkdaşları ilə şəxsi əlaqələr qururdular.

Ümumiyyətlə o illərdə xarici dövlətlərlə elmi əlaqələrin vacib istiqamətlərində Azərbaycan elminin iştirakının miqyası və xarakteri haqqında məlumatı Respublika Elmlər Akademiyasının həyatından gətirilən rəqəmlər daha aydın göstərirdi. Belə ki, tədqiq etdiyimiz 80-ci illərdə Azərbaycan SSR Elmlər Akademiyasının xaricə gedən 1500-ə yaxın alimi arasında 500-dən artıq fizika-texniki, riyazi elmlərin, 170 kimya elmlərinin, 160 yer haqqında elmin, 140 biologiya elmlərinin nümayəndələri olmuşdur (18, 7 hesablamalar müəllifindir). Xarici ölkələrlə əlaqələrin 80-ci illərində möhkəmləndirilməsində Azərbaycanın ictimai sahədə çalışan alimləri də vacib rol oynamışdılar. Onlar SSRİ alimləri tərkibində onun xarici dövlətlər ilə elmi əlaqələrini yaratmışdılar.

Bu işdə BMT-nin təhsil, elm və mədəniyyət sahələrindəki ixtisaslaşmış qanunu YUNESKO ilə əməkdaşlıqda Azərbaycanın humanitar əlaqələri zamanı təhsil və elmə də diqqət yetirilmişdi.

1980-ci ilin noyabr ayında BMT-nin Bakıda keçirdiyi seminar «Kosmosdan yerin öyrənilməsinə və xalq təsərrüfatında, xüsusən geoligiya və hibrologiyada tətbiqinə» həsr edilmişdir. Asiyanın, Afrikanın və Latın Amerikasının 26 ölkəsindən nümayəndə heyətləri vətənimizdəki seminarda iştirak etmişdi.

BMT-nin baş katibinin kosmik texnikanın tətbiqi üzrə eksperti Əhməd Padane demişdir ki, seminarın Azərbaycanda keçirilməsi kosmos haqqında elmimizin ciddi nailiyyətləri ilə bağlıdır. Həmin nəaliyyətlər Bakı mütəxəssislərinin işləri beynəlxalq birliyin alimlərinin rəğbətini qazanmışdır. Göründüyü kimi bu əlaqələrin inkişafı Azərbaycan üçün əhəmiyyətli olduğu kimi dünya üçün də maraqlı idi. Eləcə də bu işlərin davamı kimi BMT oktyabrdan başlayaraq Bakıda 4 ay geologiya elminin problemlərinə

həsr edilmiş kurslar təşkil edilmişdi. Burada Asiya və Afrikanın inkişaf etməkdə olan ölkələrin mütəxəssisləri öz ixtisaslarını təkmilləşdirmişdi (8, səh.78).

Azərbaycanda BMT-nin əməkdaşlığı çərçivəsində 1980-ci ilin oktyabrında ətraf mühit proqramı (YUNEP) və SSRİ-də YUNEP işləri üzrə komitənin beynəlxalq elmi layihələri mərkəzi dəyərində təşkil edilən kurslarda Asiya, Afrika və Latın Amerikasından 13 ölkəsinin dinləyicisi iştirak etmişdi. Onlar Azərbaycan mütəxəssislərinin təcrübəsi ilə tanış olmuş, Tibb İnstitutunun epidemologiya kafedrasının müdiri T.Tağızadənin «Leptospirozların təbii ocaqlarının sağlamlaşdırılması metodları» mövzusunda mühazirəsini dinləmişdilər. Bu cür əlaqələrin davamı kimi 1981-ci ilin sentyabrında BMT-nin ətraf mühit proqramı (YUNEP) və SSRİ Dövlət Elm və Texnika Komitəsi tərəfindən Bakıda təşkil edilmiş kurslarda da 22 ölkənin tibb nümayəndələri malyariyaya qarşı mübarizədə Azərbaycanın qazandıqları nəaliyyətlər ilə tanış olmuşlar (8, səh 80-81).

1984-cü ilin may ayında YUNESKO yanında təhsil planlaşdırma beynəlxalq İnstitutunun Azərbaycanda təşkil etdiyi kurslarda 40-dan çox Latın Amerikası, Asiya, və Afrika ölkəsindən nümayəndə iştirak etmişdi (7. səh 10).

Vaqif Fərzəliyev YUNESKO-nun mütəxəssisi kimi Hindistanda, yuri Krotkov isə Malidə işləmişlər. İxtisasca kimyaçı və mühəndis olan bu mütəxəssislər ali məktəb müəllimləri kimi də bu ölkələrdə təhsilini inkişafına yardım etmişlər.

Beləliklə, tədqiqat dövründə Azərbaycan dövlətin milli potensialına arxalanaraq dünyada gedən humanitar proseslərin inkişafına özünün nəcib tövhəsini vermiş, sülhün təntənəsi naminə əlindən gələn hər şeyi etmişdir.

Ümumiyyətlə, 80-ci illərdə Azərbaycanın beynəlxalq humanitar əlaqələri sülh, təhlükəsizlik, xalqlar dostluğu və qarşılıqlı anlaşmaya töhvə olmuş və aparılan təhlil isə bu əlaqələrin müstəqillik dövründə daha da genişləndirilməsini ön xəttə çəkir. Bu illərdə Azərbaycan Respublikasının beynəlxalq humanitar əlaqələrinin elmi planda araşdırılması bir daha sübut edir ki, xalqımız öz təbiətindən irəli gələn sülhsevərliyi, qonaqpərvərliyi, başqa xalqların mədəniyyətinə, dilinə, dininə, adət-ənənələrinə dərindən hörmət etməklə tədqiqat dövründə dövlətlərarası, bütövlükdə beynəlxalq münasibətlərə güclü təkan vermişdir. Azərbaycan humanitar fəaliyyəti bütün dünyada sülh prinsiplərinin və ideyalarının tərəfdarı kimi çıxış etmiş və aparılan araşdırmalar tədqiq olunan dövrdə dünya sistemində sülhün və əməkdaşlığın bərqərar edilməsində Azərbaycan Respubliksının və xalqının da diqqətəlayiq xidməti olduğunu deməyə tam əsas verir.

## ƏDƏBİYYAT

1.Azərbaycan SSRİ Mədəniyyət Nazirliyi dövri arxivi.
2.Azərbaycan SSRİ Nazirlər Soveti yanında Dövlət pdiprafiya və kitab satışı Komitəsinin dövrü arxivi.
3.Azərbaycan SSRİ Elmin Akdemiyası rəyasət heyətinin dövrü arxivi.
4.Azərbaycan SSRİ Ali və Orta Təhsil Hazirliyinin dövrü arxivi.
5.Azərbaycan SSRİ Nazirin Soveti yanında Dövlət Plan Komitəsinin dövrü arxivi.
6.Azərbaycan SSRİ Xariji İşlər Nazirliyinin dövrü arxivi.
7.Azərbaycan SSRİ Elmlər Akademiyasının Elmi kitabxanasının dövrü arxivi.
8.Sayad Sayadov. XX əsr: Azərbaycan və Dünya. Bakı 2006
9.Hacı Hacıyev. Dostluq və Əməkdaşlıq telləri. Bakı 1985.
10.Azərbaycan və YUNESKO. Yunesko üzrə Azərbaycan milli komissiyası. Bakı 2002.
11.«Kommunist» qəzeti 1980-1990-cı illər
12.«Bakı» qəzeti 1980-1990-cı illər
13.Газета «Вышка» 1980-1990 гг.
14.Газета «Баку» 1980-1990 гг.

15.Ежегодник Болшой Советской Энциклопедии. Выпуск 15-31. Москва 1980-1990 гг.
16.Развитее высшей школы в Советском Азербайджане, Баку 1984.
17.Отчет одеятельности Академии Наук Азербайджанской ССР. Баку. «Элм» за. 1980-1990 гг.
18.Журнал « Коммунист Азербайджана» 1980-1990 гг.
19.Журнал «Азербайджан сегодня» 1980-1990 гг.
20.Газета «Бакинский рабочии» 1980-1990 гг.

**ИСМАИЛ ИСМАИЛОВ**

## МЕЖДУНАРОДНЫЕ ГУМАНИТАРНЫЕ СВЯЗИ АЗЕРБАЙДЖАНА И ЮНЕСКО В 80-Х ГОДАХ XX ВЕКА

В 80-х годах XX века широко используя свой национальный потенциал в развитии гуманитарных связей в мире Азербайджанская ССР создала связи с ЮНЕСКО, являющимся органом ООН в сфере науки, образования и культуры.

**ISMAYIL ISMAYILOV**

## INTERNATIONAL HUMANITARIAN RELATIONS BETWEEN AZERBAIJAN AND UNESCO IN THE 80TH YEARS OF THE TWENTIETH CENTURY

The article covers Azerbaijan's wide usage of its national potential on the promotion of the relations in the 80s of the twentieth century. In those years Azerbaijan established links with the UNESCO on the development of the humanitarian relations in the world.

***Rəyçilər: t.e.n.P.Kərimzadə, t.e.d.L.L.Həsənova.***
***Gəncə Dövlət Universiteti Elmi Şurasının 30 yanvar 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №05).***